Azərbaycan milli kitabxanası

# Kredo

TARİX İNSANIN ƏQİDƏ VƏ İNAM UĞRUNDA MÜBARİZƏSİDİR!

Müstəqil ictimaisiyasi, publisistik qəzet №49-50 (1227-1228) 24 avqust 2024-cü il Qiymətі 1 manat

Qəzet 1999cu ilin oktyabrından çıxır

## RƏŞAD MƏCİD - 60

# İSTEDADIN Və TəMKİNİN MÜDRİKİ

Zənnimcə, müasir ədəbiyyatın istedadlı və nüfuzlu xadimlərinin adlarını sıralasaq, Rəşad Məcid ilkin yada düşənlərdən olar.

Elə buradaca bir sual qoyuram; nə üçün ilkin yada düşən? Əslində bu salın cavabını biz birinci cümlədə verdik. Sadəcə o istedadlıdır - deməklə iş bitmir. Bunun üçün gərək ortalıqda yaradıcılıq məhsulu olsun. O çoxlu kitabların müəllifidir. Ancaq onun nüfuz sahibi olması təkcə kitabları ilə bağlı deyil. Bu artıq şəxsiyyətin təbiəti ilə bağlı məsələdir.

Rəşad Məcid birinci növbədə ədəbi və ictimai mühitin emosionallığı nə qədər coşub-çağlasa da, təmkin atının yüyənini əlində möhkəm saxlayır. Ən mübahisəli, ziddiyyətli məqamlarda onun vəziyyətlə bağlı hövsələsinin sərhədlərinə nəzarət edərək münasibətini müşahidə etmişəm.

Ümumiyyətlə, cəmiyyət təmkinli adamların bütün gərginliklərdə təmkinli münasibətini təqdir edir. Hətta bir çoxları konkret olaraq həmin gərgin məqamda təmkin sahibindən narazı qalsa da.

Əlbəttə, bir şair kimi, yazıçı kimi, eləcə də, publisist kimi R.Məcid cəmiyyətə açıq adamdır. Vədlərində birmənalıdır. Xüsusilə gənc nəsil qarşısında sanki öhdəlik götürmüş kimi cavabdehlik missiyasını daim gözünün önündə saxlayır. Əlbəttə, missiya mənəvi mahiyyətdir. Burada "gözünün önündə saxlamaq" məcazi məna kəsb edir. Zənnimcə, özünü dərk edən, sözünün sərhədlərini bilən adamlar cavabdehlik missiyasını canlı varlıq kimi (bəlkə də Allahın özü kimi) görür və bu məsuliyyəti öz təbiətlərində qoruyub saxlayırlar.

Rəşad Məcidin 60 yaşı var. Bu yaş ömrün kifayət qədər kamilləşmə mərhələsidir. Əgər nəzərə alsaq ki, o, ədəbiyyatımızın, ədəbi mühitimizin ağsaqqallıq mərtəbəsinə hələ çox-çox əvvəllər qalxa bilib, demək, həyatını kifayət qədər mənalı yaşaya bilib.

Açığı, onun ünvanına qısqanclıq motivli rəylər də eşitmişəm; çox vacibdirmi paralel vəzifə kürsüsündə görünmək?

Ancaq Rəşad Məcid bir-birinə yaxın və fərqli mahiyyət daşıyan kürsülərdən vəziyyəti idarə edə biləcək gücdə olduğunu artıq kifayət qədər göstərə bilib.

Ədəbiyyat və mətbuat aləmi, əgər belə demək mümkünsə, kəskin ziddiyyətlərin və təzadların qarşılaşdığı bir mühitdir. Yeri gəlmişkən, Rəşad Məcidin bu kəskin təzadlar və ziddiyyətlər arenasında öz təmkinini qoruyaraq qərəzsiz və ədalətli mövqe göstərməsi onun həyat qaynağından irəli gəlir. Zənnimcə, bu qaynaq onun üçün birinci növbədə xalqımızın böyük Anarından gələn mahiyyətdir. O, ən müxtəlif tərəflərin üstün cəhətlərini özünəxas ustalıqla müşahidə edə bilir. Və elə müşahidə etdiklərindən çıxış yolu kimi istifadədə



məharətlidir. Ona görə də ən ziddiyyətli tərəflər belə R.Məcidin yanında anlaşma məqamına çata bilirlər.

Hər halda R.Məcid böyük mətbuat xadimi və böyük ədəbiyyat adamıdır. Yaradıcılığın xəbər janrından tutmuş qələmsiz yazıla biləcək növlərinə qədər ən müxtəlif sahələrdə istedadını və gücünü göstərə bilib.

Yeri gəlmişkən, burada onun ədəbi xidmətlərinə və mətbuat fəaliyyətinə görə təltiflərini və mükafatlarını da xatırlamaq ən azı xronika üçün çox vacibdir:

Azərbaycan Jurnalistlər Birliyinin Həsən bəy Zərdabi mükafatı (1996)

Azərbaycan Respublikasının əməkdar mədəniyyət işçisi (2005)

Beynəlxalq Rəsul Rza mükafatı (2006)

«Bakı Dövlət Universitetinin dostu» mükafatı (2011)

Azərbaycan Mətbuat Şurasının «Ali Media Mükafatı» (2012)

TÜRKSOY-un ünlü qırğız şairi, ozan Toktogul Satılganovun 150 illik yubileyi ilə bağlı diplomu (2014)

TÜRKSOY-un Molla Pənah Vaqifin 300 illik yubileyi münasibəti ilə təsis etdiyi yubiley medalı (2017)

Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun «Ədəbiyyat İnstitutunun dostu» diplomu (2018)

«Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918-2018)» yubiley medalı (2019)

«Bakı Dövlət Universitetinin 100 illiyi (1919-2019)» Azərbaycan Respublikasının yubiley medalı (2019)

Türk Ədəbiyyatı Vəqfinin «Türk Dünyasına Üstün Xidmət» mükafatı (2021)

«Nizami Gəncəvinin 880 illiyi (1141-2021)» xatirə nişanı (2021)

«Heydər Əliyevin 100 illiyi (1923-2023)» yubiley medalı (2024)

2-ci dərəcəli «Vətənə xidmətə görə» ordeni (20.08.2024)

Göründüyü kimi sonuncu dəyərli mükafat onun cəmiyyətdə və dövlət tərəfindən təqdir olunan xidmətlərinin nəticəsi kimi diqqəti cəlb edir.

Açığı, mənim Rəşad Məcidlə münasibətlərimin isti dostluq mərhələsi gəlib çatmasa da, onun müasir gəncliyə, ümumiyyətlə, ədəbi qüvvələrə səmimi və qərəzsiz münasibətini həmişə təqdir etmişəm.

Rəşad Məcid işıqlı ziyalıdır. Lap onun işığından mənə bir zərrə düşməsə belə bu işığı inkar edə bilmərəm.

Cəmiyyətin yolu işıqdan keçir. Rəşad Məcid isə təmkinin və istedadının müdrikidir. İşıq onun mənəvi mühitindən qaynaqlanır.

(Bax səhifə 15-ə)

**Əli Rza Xələfli**
**23.08.2024**